*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 282-286* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.282*

# Xalçalarda memarlıq abidələrinin təsviri

**Leyla Məmmədkərimova**
Sənətsünaslıq üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: leyla.agayeva73@mail.com

**Annotasiya.** Azərbaycan dekorativ-tətbiqi sənət sahələri tarixi inkişaf prosesində formalaşmışdır. Qədim tarixə malik olan dekorativ-tətbiqi sənət növü – xalçaçılıq, xalqın milli mədəni irsində özünəməxsus yer tutur. Ətraf aləmlə bizi əhatə edən mühit insanları, bilavasitə estetik cəhətdən tərbiyə etmək imkanına malikdir.
Müxtəlif funksiyalar daşıyan xalça insan üçün rahatlıq, istilik yaradır, interyeri canlandırır, estetik cəhətdən zövq oxşayır. Tətbiqi sənətinin digər növləri ilə çoxlu tellərlə bağlı olan bu sənət növü memarlıqda interyerin ayrılmaz hissəsi sayılır. Biz bilirik ki, xalçaçılıq sənəti toxuculuq bazasında yaranmışdır. Qədim insan ilk əvvəl hörməni öyrənmiş və otlardan, ağac budaqlarından, ağac qabığının liflərindən məişətdə istifadə etmək üçün müxtəlif əşyalar hazırlamışlar. Mənzil və evlərin döşəmə və divar hissələrini bəzəyən bu xalçalar öz süjet xətti ilə fərqlənir.
Bu məqalədə fərqli süjet xətti ilə seçilən, mürəkkəb kompozisiya quruluşuna malik, təbiətin ecazkar rəng çalarlarını və memarlıq abidələrini özündə əks etdirən “Dörd fəsil” xalçalarının səciyyəvi xüsusiyyətlərindən və onların müasir memarlıqda tətbiqindən bəhs edilir. Müasir dövrümüzdə xalçaların bir qədər öz əhəmiyyətini itirdiyi hesab edilsə də, bu gün rahat atmosferin yaradılması üçün interyerdə xalçaların olması mütləqdir və onların interyerdə istifadəsi hər zaman tələbat kimi ortaya çıxarılır.
**Açar sözlər:** xalçaçılıq, süjetli xalçalar, dekorativ-tətbiqi sənət, memarlıq abidələri, təsvir

**Məqalə tarixçəsi:** göndərilib – 21.02.2024; qəbul edilib – 04.03.2024

# Description of architectural monuments on carpets

**Leyla Mammadkarimova**
Doctor of Philosophy in Art History
Institute of Architecture and Art of ANAS
E-mail: leyla.agayeva73@mail.com

**Abstract.** In the process of historical development of Azerbaijan, branches of decorative and applied arts were also formed. Carpet weaving, a type of decorative and applied art with an ancient history, occupies a special place in the cultural heritage of Azerbaijan. The carpet has various functions: it creates comfort and warmth for a person, enlivens the interior, and is aesthetically pleasing. This art form, closely related to other types of applied art, is an integral part of architecture and interior design. We know that the art of carpet weaving originated from weaving. Ancient people first learned to weave and make various household items from wood, tree branches, and tree bark fibers.

Carpets that decorate the floors and walls of apartments and houses are distinguished by their storyline.
This article discusses the characteristic features of the “Seasons” carpets, which are distinguished by a different storyline, have a complex compositional structure, glorify the wonderful colors of nature and architectural monuments, and their use in modern architecture. Although it is believed that carpets have lost their importance in our time, today carpets are an essential element of the interior to create a comfortable atmosphere, and their use in the interior is always in demand.
**Keywords:** Carpet weaving, subject carpets, decorative and applied arts, architectural monuments, image

**Article history:** received – 21.02.2024; accepted − 04.03.2024

## Giriş / *Introduction*

Azərbaycanda dekorativ-tətbiqi sənət növü qədim tarixə malikdir. Yurdumuzun zəngin təbiəti və gözəllikləri müxtəlif sənət növlərinin sahələrinin meydana gəlməsi üçün əlverişli şərait yaratmışdır. Dünyanın ən qədim xalçaçılıq mərkəzi sayılan Azərbaycan bu gözəllikləri özündə birləşdirir.

Ətraf aləmlə bizi əhatə edən mühit insanları, bilavasitə estetik cəhətdən tərbiyə etmək imkanına malikdir. Nəzərə alsaq ki, gözəllik aləmi insan həyatına müxtəlif mənbələrdən və yaxud kənardan daxil olur, o zaman əminliklə deyə bilərik ki, xalq – tətbiqi sənət nümunələrindən olan xalça və xalı məmulatlarının bu sahədə böyük əhəmiyyəti vardır. Biz bilirik ki, xalçaçılıq sənəti toxuculuq bazasında yaranmışdır. Qədim insan ilk əvvəl hörməni öyrənmiş, otlardan, ağac budaqlarından, ağac qabığının liflərindən məişətdə istifadə etmək üçün müxtəlif əşyalar hazırlamışlar,

Dekorativ-tətbiqi sənət sahəsinin tədqiqi hər şeydən əvvəl, Azərbaycanda bu sənətin inkişafını nəzərdən keçirməyi tələb edir. Sənətşünas alim Aida Sadıqova da “çoxəsrlik ənənələri olan xalçaçılıq sənəti “Azərbaycan dekorativ-tətbiqi incəsənətin incisidir”, – deyə yazır” [3, s.58].

## Əsas hissə / *Main Part*

Azərbaycanda dekorativ-tətbiqi sənətin müxtəlif növləri tarixən qədim dövrlərdə təşəkkül taparaq formalaşmış və inkişaf etmişdir.

Orta əsrlərdə şəhər və kənd yerlərində ustalar külli miqdarda dekorativ-tətbiqi sənətin müxtəlif sahələri üzrə kustar üsulla çalışırdılar. XX əsrin əvvəllərində Azərbaycanda kustar sənətkarlıq bütünlüklə aradan çıxdıqdan sonra, el arasında ən geniş yayılmış sənət növü olan xalçaçılıq geniş vüsət alır. “El sənətinin başqa növlərində gözə çarpan tənəzzül bu vaxt xalçaçılıqda da özünü büruzə verməyə başlayır” [1, s.235]. El arasında ən geniş yayılmış sənət növü olan xalçaçılıq əvvəlki dövrlərdə olduğu kimi, bu əsrlərdə də özünü büruzə verir.

Sözükeçən dövrlərdə Azərbaycan xalçalarının əksəriyyətinin ornamental kompozisiya quruluşuna malik olması ilə yanaşı, süjetli xalçalara da rast gəlinir.

Sənətşünas alim, Əməkdar incəsənət xadimi Kübra Əliyeva “Тебризская ковровая школа XVI-XVII вв.” kitabında yazır: “Müasir sənətşünaslıq üçün düzgün aksentin yerləşdirilməsi və xüsusən də Təbriz xalçalarının fars yox, türk sənəti kimi azərbaycanlıların sənət əsərləri olaraq müəyyən edilməsi vacibdir” [4, s.114]. Cənubi Azərbaycan İranın ərazisində olmasına baxmayaraq, orada Azərbaycan türkləri yaşamış və əsrlərcə birgə inkişaf etmişlər.

Dekorativ-tətbiqi sənət nümunələri olan süjetli xalçaların toxunması qədim tarixə və zəngin ənənələrə malikdir. Belə xalçalar Cənubi Azərbaycanın mədəniyyət və incəsənət mərkəzi olan Təbriz şəhərində toxunurdu. Təbriz şəhə-

rində süjetli xalçaların istehsalının inkişafı XVI yüzilliyə təsadüf edir. Təbriz miniatür məktəbinin çiçəklənməsi də məhz bu dövrə təsadüf edir. "Aparılan tədqiqatlar göstərir ki, bu məktəbin rəssamları miniatür rəngkarlığı ilə kifayətlənməyərək, həm də dekorativ sənətin bir çox növləri (bədii parça, memarlıq ornamentləri, zərgərlik nümunələri və s.) üçün eskiz və cizgilər hazırlamışdılar. Həmin rəssamlar, eyni zamanda zəngin bədii xalçalar üçün bəzək və rəsmlər, müxtəlif ov, savaş, eşq və məhəbbət, saray həyatına həsr olunmuş kompozisiyalar da yaradırdılar. Süjetli xalçalar başlıca olaraq şəkil kimi divardan asılmaqdan ötrü toxunurdu. Onların toxunmasında yüksək keyfiyyətli yun, zərif iplik istifadə edilirdi. Yüksək sıxlıq və zərif xov bu xalçaların əsas texniki xüsusiyyətlərindən sayıla bilər" [6].

XX əsrdən başlayaraq mütəxəssislər tərəfindən icra edilən bədii mövzulu xalçaların toxunması Azərbaycan xalçaçılıq sənətinin inkişafına müsbət təsir göstərmişdir. Təsadüfi deyildir ki, ötən əsrin birinci yarısında Azərbaycanın xalça ustaları tərəfindən Nizami, Füzuli, M.F.Axundzadə, C.Məmmədquluzadə, S.Vurğun və başqa görkəmli klassiklərimizin portretləri ilə yanaşı, eyni zamanda Lətif Kərimov kimi mahir xalça bilicisinin səyi nəticəsində bir neçə rus şairlərinin portretlərinin də ilmələrə köçürülməsi Azərbaycan xalçaçılığının bariz nümunələridir.

Azərbaycan xalcalarının forma, toxunma texnikası, süjet, ornament, rəng və kompozisiya rəngarəngliyi onların tədqiqi üçün geniş meydan acır. Xalça Azərbaycan xalqının ədəbiyyatı, memarlığı, bədii miniatur sənəti ilə də sıx bağlıdır. Təsadüfi deyildir ki, professor Röya Tağıyeva "sənətşünaslıqda ilk dəfə olaraq süjetli xalçaların sistemli və hərtərəfli tədqiqat obyektinə çevrildiyini qeyd etmişdir" [5, s.3].

Bu məqalədə mürəkkəb kompozisiya quruluşuna malik, təbiətin ecazkar rəng çalarlarını və memarlıq abidələrini özündə əks etdirən "Dörd fəsil" xalçalarından bəhs edəcəyik. Süjetli xalçalar mövzusu XV-XVII əsrlərdə xalçaçılıq sənətində daha geniş yayılmış, hətta bir ənənə, məktəb şəklini almışdır.



**Şək. 1.** Xalça. "Dörd fəsil". Təbriz məktəbi. XIX əsr. Azərbaycan Dövlət İncəsənət Muzeyi



**Şək. 2.** Xalça. "Dörd fəsil". Təbriz məktəbi. XIX əsr. Azərbaycan Dövlət İncəsənət Muzeyi

XIX əsr Təbrizdə toxunan "Dörd fəsil" adlı xalçaların süjet xətti olduqca maraqlıdır. Birinci şəkildəki xalçanın mərkəz sahəsi dörd fəsli özündə əks etdirən unikal bir rəsm əsəridir [Şək. 1]. Mürəkkəb kompozisiya quruluşuna malik bu xalçada qış, yay, bahar və payız təsvir edilib. Buradakı tikililərə nəzər saldıqda İran və Azərbaycanın görkəmli memarlıq abidələrinin – Təbrizin Göy məscidi, Mədain xarabalıqları, Sultaniyədəki Olcaytu türbəsi və Persopslis tikililəri təsviri verilir. Maraqlıdır ki, bu cür xalçaların haşiyəsində İranın tarixi və mifoloji hökmdarlarının portretləri də ehtiva etdirilir.

Təbriz memarlıq məktəbinin yadigarı, böyük və əzəmətli memarlıq kompleksi kimi tanınan Göy məscid nəinki memarlıq tarixində, hətta sənətşünaslıqda da əvəzolunmaz yer tutur.

Günümüzdə tarixi-memarlıq abidələrini təsvir edən rəsm əsərləri kifayət qədər çoxdur. Lakin xalçada memarlıq tikililərinin yer alması ümumi kompozisiyaya xüsusi rövnəq verir. Burada hər bir fəsil həm də bir memarlıq abidəsi ilə təsvir edilib. Fəsillərdə öz əksini tapan memarlıq abidəsi sanki insanın təbiət və torpaqla təmasından doğan bir örnək kimi verilib. Rəssamın təxəyyülünə görə fəsillərlə memarlıq abidələrinin bir vəhdət təşkil etdiyi görünsə də, əslində rəssam dövrünün qədim sivilizasiya tarixini əks etdirib.

Payız fəsli Təxti-Cəmşid sarayının xərabələri fonunda inikasıdır. 1465-ci ildə Təbriz şəhərində tikilən, kompozisiya kamilliyi, bədii-estetik xüsusiyyətlərini özündə tərənnüm etdirən məşhur memarlıq abidəsi olan Göy məscidin fasad hissəsini görürük. Abidədə *Təbriz memarlıq məktəbinin* zəngin *ənənələrini özündə əks etdirən* nadir memarlıq əsəridir. Onun zəngin ornamental kompozisiyaları müxtəlif materiallarla və müxtəlif üsullarla yerinə yetirilmişdir: yığma kaşı mozaikası, mərmər və gəc üzərində oyma, bişmiş və şirəli kərpiclərin naxışlı hörgüsü və s. Bunlarla yanaşı olaraq kaşı da Göy məscidin əsas bəzəyi sayılır. Bu bəzək öz yüksək bədii və texniki keyfiyyətləri ilə bütün görkəmli Yaxın Şərq memarlığı araşdırıcıların diqqətini cəlb etmişdir.

Bahar fəsli XIV əsrin qiymətli memarlıq abidəsini, Sultaniyyədə ucaldılmış Elxani Olcaytu-Xudabəndə türbəsini aydın görürük. Yay fəslinin təsvirini isə uzaqlarda Mədain xarabalığı tamamlayır.

Birinci xalça təsvirində daha çox memarlıq abidələri əksini tapıbsa, digər xalçada müxtəlif mövzulu obrazlar təsvir edilib [Şək. 2]. Biçinə çıxmış kəndlilər, qar topu oynayan uşaqlar, çay qırağında oturub istirahət edən bir qoca, bundan əlavə bir çox məişət səhnələri diqqəti cəlb edir. Əsasən də iki xalçanı bir-birindən fərqləndirən mərkəzdəki medalyonlardır. Şərqin böyük şairi Ömər Xəyyam öz sevgilisi ilə təsvir olunub [Şək. 1]. Digər xalçadakı medalyonda Əhəmənilər imperiyasının qüdrətli hökmdarı Dara və onun qulluqçuları, mərkəzi sahə ətrafında on iki astroloji bürclər əks olunmuş rombşəkilli medalyon verilib. Dörd fəsil xalçalarında kiçik detallarına qədər düşünülmüş yeganə tətbiqi sənət nümunəsidir. Sənətsünas Altun Mikayılli yazır: *Toxucunun hökmdar Dara və Azərbaycan memarlığının şah əsəri olan Təxti-Cəmşidə marağı təkcə bədii abidəni yox, həmçinin həmin dövrün sosial-siyasi vəziyyətini təcəssüm etdirir"* [2].

Hal-hazırda bu xalçalar Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin daimi ekspozisiyasında nümayiş edirilir.

## Nəticə / *Conclusion*

Memarlıq abidələrinin sənət nümunələrində (xalçalarda), tətbiqi, onların səciyyəvi xüsusiyyətlərinin tapılması və öyrənilməsi vacibdir. Elə bu baxımdan "iç memarlıq" sayılan interyer dizaynında xalçaların rolu əvəzsizdir.

Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycanda müasir zamanda divardan xalça asmaq ənənəsi artıq dəbdən düşmüş sayılsa da, miniatür və süjetli xalçalardan divarda element şəklində istifadə olunması bir növ milliliyə dəlalət edən tərtibat kimi geniş yayılıb. Müasir memarlıqda belə süjetli xalçalar istənilən interyerə uyğunlaşır.

**Ədəbiyyat / *References***

1. Kərimov, K.C., Əfəndiyev, R.C., Rzayev, H.İ., Həbibov, N.D. Azərbaycan incəsənəti: monoqrafiya / K.C.Kərimov, R.C.Əfəndiyev, H.İ.Rzayev, N.D.Həbibov. – Bakı: İşıq, 1992. – 344 s.
2. Mikayıllı Altun Məmmədhüseyn 9 Nizami Muzeyinin xalşa fonundakı əsərlərin janr və kompozisiya xüsusiyyətləri [Mətn]: sənətşünaslıq üzrə fəlsəfə d-ru e.dər.al. üçün təq.ed.dis.: 6220.01. A.M.Mikayıl; AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat muzeyi
3. Sadıqova, A. Azərbaycan xalça sənətinin qorunması və inkişafı Respublika elmi-konfransının materialları. – Bakı, 2020. – 184 s.
4. Алиева, К. Тебризская ковровая школа XVI-XVII вв. / Кюбра Алиева. – Баку: Элм, 1999. – 268 с.
5. Р.Тагиева. Сюжетные ковры Азербайджана. – Баку: Ишыг, 1988. – ст. 114 (иллюстр.), [Elektron resurs]. – https://web2.anl.az/read/page.php? bibid=vtls 000062126
6. https://www.wikimedia.az-az.nina.az/

## Описание памятников архитектуры на коврах

**Лейла Мамедкеримова**
Доктор философии по искусствоведению
Институт архитектуры и искусств НАНА
E-mail: leyla.agayeva73@mail.com

**Резюме.** В процессе исторического развития Азербайджана формировались и отрасли декоративно-прикладного искусства. Особое место в культурном наследии Азербайджана занимает ковроткачество – вид декоративно-прикладного искусства, имеющий древнюю историю. Ковер несет различные функции: создает комфорт и тепло для человека, оживляет интерьер, эстетичен. Этот вид искусства, тесно связанный с другими видами прикладного искусства, является неотъемлемой частью архитектуры и дизайна интерьера. Мы знаем, что искусство ковроткачества зародилось на основе ткачества. Древние люди впервые научились ткать и изготавливать различные предметы домашнего обихода из древесины, ветвей деревьев, волокон коры деревьев.

Ковры, украшающие полы и стены квартир и домов, отличаются своей сюжетной линией. В данной статье рассматриваются характерные особенности ковров «Времена года», отличающихся различной сюжетной линией, имеющих сложную композиционную структуру, воспевающих чудесные краски природы и памятников архитектуры, и их применение в современной архитектуре. Хотя считается, что ковры в наше время утратили свое значение, сегодня ковры являются обязательным элементом интерьера для создания комфортной атмосферы, а их использование в интерьере всегда является востребованным.

**Ключевые слова:** ковроткачество, сюжетные ковры, декоративно-прикладное искусство, памятники архитектуры, изображение